*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 155-159*

https://doi.org/10.62837/2026.2.155

**dosent RƏHIMOVA GÜLNARƏ**
***Azərbaycan Tibb Universiteti***
***Xarici dillər kafedrası***
***grehimova@amu.edu.az***

# XARİCİ DİL TƏDRİSİNDƏ ŞİFAHİ NİTQ BACARIQLARININ İNKİŞAFINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN PEDAQOJİ ROLU

## X Ü L A S Ə

**Açar sözlər**: *kütləvi informasiya vasitələri, medid resurslar, dinləmə və danışma bacarıqları, xarici dillərin tədrisi, şifahi nitq*

Kütləvi informasiya vasitələri (KİV) müasir cəmiyyətin formalaşmasında mühüm rol oynayır. Televiziya, radio, qəzetlər, internet və sosial media vasitəsilə informasiya sürətli və geniş auditoriyaya çatdırılır. KİV insanların dünya görüşünün formalaşmasına, ictimai rəyin yaranmasına, təhsil və maarifləndirmə prosesinə əhəmiyyətli təsir göstərir. Xüsusilə təhsil sahəsində kütləvi informasiya vasitələrindən istifadə öyrənmə prosesini daha maraqlı interaktiv və effektiv edir. Lakin informasiya bolluğu fonunda məlumatların düzgün seçilməsi və tənqidi düşünmə bacarıqlarının inkişafı xüsusilə əhəmiyyət kəsb edir. KİV bizim məlumatlarımızı paylaşmaqda yardımçı olan əsas vasitədir. KİV materialları həm İnput, həm də Output öyrənmə üçün sərfəli vasitədir. Dərs ləvazimatları və digər istifadə olunacaq mənbələr elə bir yerdə yerləşdirilməlidir ki, dil öyrənənlər "online" məlumatları asanlıqla görə və əldə edə bildinlər. Təlim materiallarının məzmunu bir stimul kimi öyrənilən dildə kommunikasiya prosesinin yaradılmasına tələbatın əmələ gəlməsinə səbəb olur və nəticədə dilöyrənənlərin fəal verbal fəaliyyətini şərtləndirir. Beləliklə, kommunikativ bacarıq tələbələrdə şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi ilə bağlıdır. Həmçinin dram fəaliyyəti, texnoloji nəaliyyəti və kommunikativ öyrənməni, özündə ehtiva edən videotapşırıqlar da dilöyrənənlərin dərsə olan həvəs və marağının artmasına səbəb ola bilər.

Müasir dövrdə qloballaşma beynəlxalq inteqrasiya və informasiya cəmiyyətinin sürətli inkişafı xarici dillərin öyrənilməsinə olan tələbatı daha da artırmışdır. Xarici dil tədrisinin əsas məqsədi tələbələrdə kommunikativ bacarıqların xüsusilə də şifahi nitq vərdişlərinin formalaşdırılmasıdır. Bu baxımdan ənənəvi tədris üsulları ilə yanaşı, kütləvi informasiya vasitələri (KİV) televiziya, radio, internet portalları, sosial media, podkastlar və videoplatformalar xarici dil təlimində mühüm yer tutur. Bu da pedaqoji vasitə kimi təlimdə əsas yer tutur. Şifahi nitq vərdişləri xarici dildə danışmaq və dinləmək bacarıqlarının məcmusudur. Bu bacarıqlar aşağıdakı komponentləri əhatə edir:

Düzgün tələffüz və intonasiya; lüğət ehtiyatlarının yerində istifadəsi; qrammatik düzgünlük; nitqin axıcılığı və spontanlığı; ünsiyyət zamanı reaksiya vermək bacarığı və s.

KİV informasiyanın kütləyə çatdırılmasında müasir sivilizasiyanın ən geniş yayılmış vasitələrindən biridir (1 səh. 4-5). KİV içərisində dilin informasiya, estetik, ideoloji funksiyalığı, daha çox TV-də qabarıq şəkildə özünü göstərir. Bu zaman aparıcıların nitqi aydın və düzgün olması ilə seçilməlidir, çünki təmsil edən şəxsdir. Dil bir sistem kimi öz ictimai funksiyasını nitqlə həyata keçirir. Kütləvi informasiya vasitələrində nitq yeni mükəmməl keyfiyyət qazanır. Televiziyada nitq müəyyən üç funksiyanı yerinə yetirir.

1) Ünsiyyət
2) Məlumatlandırma
3) Təsiretmə

Nitq bir birindən fərqlənən müxtəlif üslublarda – danışıq, publisistik, ədəbi-bədii üslubda özünü göstərir. TV dilində bütün informasiyalar ədəbi dilin fonetik, leksik, qrammatik səviyyələrini əhatə edir. Bu zaman dil normalarına riayət etmək vacib şərtlərdəndir. Fonetik norma səviyyəsində vurğu əsas amil hesab edilir. Bu zaman intonasiyanın xüsusi əhəmiyyətə malik olduğunu vurğulamaq olduqca vacibdir (2 səh. 12-13). Leksik formada dilin ən çevik vahidi sözdür. Kütləvi informasya vasitələrində təkrarlar da böyük rol oynayır. Qrammatik normaya görə dilin qrammatik qruluşunu nitq tənzimləyir. Kütləvi informasiya vasitələri üçün daha çox inversiya xarakterikdir. Sözlər hər bir dildə yeniliyə söykənməsi ilə seçilir. Hər gün yeni söz yaranır və sürətlə çoxalır. Buna görə də zaman-zaman dildə sözlərin gəlməsi səbəbindən təhlili vacib sayılır. Qəzetlər kütləvi informasiya vasitələrindən biridir və onların yeni söz və ifadələrin yranmasında və yayılmasında böyük rol oynayır. Belə ki, qəzet və məqalələrdə yeni sözlərdən daha çox istifadə olunur (3 səh.24). KİV-in şifahi nitqin inkişafına təsiri çox böyükdür. 1) Dinləmə bacarığının inkişaf tellərinin ya verilişləri, radio proqramları, podkast və videomateriallar vasitəsilə öyrənilir. Burada fərqli aksent və tələffüzlə tanış olunur, təbii nitq tempinə uyğunlaşır və kontekstdən mənanı anlama bacarığı inkişaf etdirilir. Kütləvi informasiya vasitələrigeniş auditoriyaya yönəlmiş orijinal (autentik) və canlı dil nümunələri təqdim edən informasiya təqdim informasiya mənbələridir. Xarici dil tədrisində KİV-in əsas üstünlükləri aşağıdakılardır. Şifahi nitqin inkişafı tələbələrin dili real ünsiyyət vasitəsi kimi qavramasına şərait yaradır. Xarici dildə şifahi nitq vərdişləri danışmaq və dinləmək bacarıqlarının məcmuəsidir. KİV-in real real danışıq mühitinin yaranmasına, müasir dil nümunələrinin əks etdirilməsinə kömək edir. Həmçinin mədəni və sosial kontekst təqdim edilməsinə tələbələrin motivasiyalarını artırmasına zəmin yaradır (4, səh.6-7). Kütləvi informasiya vasitələrinin şifahi nitqin inkişafına böyük təsiri vardır. Dinləmə bacarıqlarının inkişafına televiziya verilişləri, videomaterialların çox böyük rolu vardır. Danışıq

bacarıqlarının formalaşmasını da buna sübut kimi göstərmək olar. KİV əsasında təsir edilən tapşırıqlar (müzakirə, debat, təqdimatlar) tələbələrin sərbəst danışıq vərdişlərini gücləndirir və fikri ardıcıl və məntiqi ifadə etməyə kömək edir. Təbii situasiyalardan fərqli olaraq spontan şəkildə əmələ gələn KİV fonunda təlim situasiyaları müəllim tərəfindən planlaşdırılır və təqdim edilir. Çox vaxt həmin situasiyaları təqdim edərkən müəllim tərəfindən mənimsənilməli olan konkret linqvistik materialların istifadə edilməsi tövsiyə edilir. Əsasən şərti – real situasiyalar əyani – nitq, oxunulan material və audio – vizual vasitələrlə təşkil edilən situasiyalar təsviri – nitq situasiyalarına aid edilə bilər. Onu da qeyd etmək lazımdır ki, kütləvi informasiya materialları ilə bağlı təlim situasiyaları real və qeyri-real komponentlərin nisbətindən asılı olaraq, səciyyələndirilir. İngilis dili dərslərində KİV materiallarından daha geniş şəkildə istifadə etməklə şifahi nitqin inkişaf etdirilməsi prosesini daha səmərəli şəkildə təşkil etmək və bu istiqamətdə daha yüksək nailiyyətlər əldə etmək mümkündür. Xarici dil dərslərində tələbələrə kütləçi informasiya vasitələrilə təqdim olunan materiallar onları maksimum dərslərdə fəallaşdırmaq, öyrənilən xarici dildə şifahin nitq ünsiyyətinə qoşulmasına həvəsləndirməlidir. (5 səh.21). Şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi prosesinin qlobballaşma dövründə dil mütəxəssisləri qarşısında qoyulan tələblərə cavab verən tərzdə təşkil edilməsi, təlim prosesinin tələbələrin ehtiyac maraq və təlabatlarını nəzərə almaqla təmin edə bilər. Beləliklə, qeyd etmək olar ki, kütləvi informasiya vasitələri xarici dillərin tədrisində şifahi nitq vərdişlərinin inkişafında mühüm rol oynayır. KİV-dən məqsədyönlü və sistemli istifadə tələbələrin dil bacarıqlarının praktik şəkildə inkişaf etdirir, onların kommunikativ bacarıqlarını və dilə marağını artırır. Bu səbəbdən müasir xarici dil təlimində KİV-in tətbiqi pedoqoji zərurət kimi qiymətləndirilməlidir. Buradan belə nəticəyə gəlmək olar ki, şifahi nitq vərdişlərinin interaktiv şəkildə aşılanması müasir dövrdə orta və ali məktəblər qarşısında qoyulan əsas məqsədlərdən biridir. Şifahi nitq vərdişlərinə tələbələrin qloballaşma dövrünün tələblərinə uyğun olan səviyyədə yiyələnməli olduqca əhəmiyyətli məsələlərdən biridir. Şifahi nitq vərdişlərinin interaktiv şəkildə formalaşdırılması təlim prosesinin daha səmərəli şəkildə təşkilini təmin edir. İngilis dilində şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi prosesinin əsasını təşkil edən pedoqoji, linqvistik və psixolinqvistik amillərin təhlili şifahi nitq vərdişlərinin səmərəli şəkildə formalaşdırılmasnı şərtləndirən əsas prinsipləri müəyyənləşdirməyə imkan verir.

**Associate professor Rahimova Gulnara**

**S U M M A R Y**

**THE PEDOGOGICAL ROLE OF MASS MEDIA IN DEVELOPING ORAL SPEECH SKILLS IN FOREIGN LANGUAGE TEACHING**

**Keywords:** *media resources, communicative competence, listening and speaking skills, oral speech, skills*

Mass media plays a significant role in shaping modern society and influencing public opinion. Through television, radio newspapers, the internet, and social media information is disseminated rapidly to a wide audience. The use of mass media contributes to education, awareness and cultural exchange in the field of education. This article deals with the problem of working out effective ways of speaking skills. Today the main goal of teaching and learning foreign languages in the global world is developing language ability to use the target language for communication. This article is devoted to the mass media in modern methodology. While analyzing great attention was given to the facts taken from the literature. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons, of literature. The author emphasizes its role in linguistics. Since its emergence this notion and new researches appeared. Introduction can also give students strategies and phrases to use classification and comprehension check. The introduction must capture students attention establish rapport and announce your purpose. The use of mass media contributes to education, awareness and cultural exchange.

**ДОЦЕНТ РАГИМОВА ГЮЛНАРА**

**ПЕДОГОГИЧЕСКАЯ РОЛЬ СРЕДСТВ МАССОВОЙ ИНФОРМАЦИИИ В РАЗВИТИИ НАВОЧКОВ УСТНОЙ РЕЧИ ПРИ ОБУЧЕНИЕ ИНОСТРАННЫМ ЯЗЫКАМ**

**Ключевые слова:** *навыки устной речи, средство массовой, информации, обучение, компетенция.*

Средство массовой информации играют важную роль развитии современного общество и формировании общественного мнения. Телевидение, радио, печатные издания, интернет и социальные сети обеспечивают быстрое распространение информации среди широковой аудитории. Использование СМИ способствует образовательному процессу появленимо культурному обмену. В образовательной сфере СМИ помогают сделать обучение более наглядным и эффективным. Однако в условиях информационного изобилия особое значение при обретает развитие критического мышления и умения отбирать достоверную информацию. Отмечается, что это дает воспоминать

смысл во время анализа еще более ясно разнообразном колорите. Одной из основных целей изучения языка является обладание умением эффективно общаться на изучаемой языке. Современно очевидно, что приоритетным направлением в процессе обучения тому и иному языку должно статье использование языка в процессе коммуникации. Необходимым условием успешно в нед новаторских идеи является активность участников процессе обучения языку. Автор пытается раскрытие роль СМИ. Ссылаясь на работы ученых исследовавших а также подчеркивает ее важность.

## ƏDƏBİYYAT

1.Əhmədov Ə. Xarici dillərin tədrisinin metodikası. Bakı, Elm, 2015;
2. Пассов Е.И. Коммуникативный метод обучения иноязычному говоренное. Москва Происвещенные, 2000;
3. Сафанова В.В. Медиаобразование в системе языкового обучения. Москва. Высшая школа, 2014;
4. Gask C. Ricards. Communicative language teaching today Combridge University Ress, 2006;
5. Quliyeva S. Müasir təlim texnologiyası və media resursları. Bakı, Təhsil, 2018.

**Rəyçi: prof. Z.Ş.Məmmədova**